**AKADEMİK BAKIŞ DERGİSİ**
**Sayı: 36 Mayıs – Haziran 2013**
**Uluslararası Hakemli Sosyal Bilimler E-Dergisi**
ISSN:1694-528X İktisat ve Girişimcilik Üniversitesi, Türk Dünyası Kırgız – Türk Sosyal Bilimler Enstitüsü, Celalabat – KIRGIZİSTAN
http://www.akademikbakis.org



# XIX ƏSRİN SONU, XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ NAXÇIVANDA MAARİFİN SƏVİYYƏSİ



***Taleh HALİLOV****

**Xülasə**

Məqalədə XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarifin səviyyəsi araşdırılmışdır. Bu zaman öyrənilmişdir ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarif sahəsində aparılan islahatlar, yaşlılar və qadınlar arasında savadsızlığın ləğvi, məktəb yaşlı uşaqların təhsilə cəlb edilməsi Naxçıvanda ziyalılıq səviyyəsinin yüksəlməsinə və gələcəkdə savadsızlığın tam ləğvinə gətirib çıxardı.

**Açar sözlər:** Maarif, məktəb, sinif, şagird, ana dili, ibtidai təhsil, orta təhsil, mollaxan, mədrəsə

## XIX YÜZYILIN SONU, XX YÜZYILIN BAŞLARINDA NAHÇIVANDA MAARİFİN GELİŞİMİ (SEVİYESİ)

**Öz**

Makalede XIX yüzyılın sonu, XX yüzyılın başlarında Nahçıvan'da egitimin gelişimi (seviyesi) araştırılmıştır. Belirlenmiştir ki, XIX yüzyılın sonu, XX yüzyılın başlarında Nahçıvan'da maarifçilik alanında yapılan reformlar, yaşlılar ve bayanlar arasında egitimsizligin iptali, okul yaşındaki çocukların eğitime Nahçıvanda ziyalılıq seviyesinin yükselmesine ve gelecekte savadsızlığın tam iptaline yol açmıştır.

**Anahtar Kelimeler:** Maarif, okul, sınıf, öğrenci, ana dili, ilköğretim, orta öğretim, medrese.

## LEVEL OF ENLIGHTMENT IN NAKHCHIVAN IN LATE 19TH AND EARLY 20TH CENTURIES

**Abstract**

The article studies the level of enlightment in Nakhchivan in late 19th and early 20th centuries. Consequently, it was found out that the reforms carried out in the field of enlightment, the cancellation of ignorance among adults and women, involvement of school-aged children into education led to the increase of the people’s level of intellectuality entirely and the complete cancellation of ignorance in the future.

**Key words:** enlightment, school, form, pupil, mother tongue, primary education, Moslem ecclesiastical school, Moslem religious school.

* Naxçıvan Dövlət Universitetinin dissertantı, x.taleh@gmail.com

XIX əsrin sonu XX əsrin əvvəllərində də Naxçıvan, Azərbaycanda elminin və maarifin inkişafına böyük töhfələr vermişdir. Bu dövrdə Azərbaycanda təzahür edən milli maarifçilik hərəkatı Naxçıvanda da özünü göstərməyə başlamışdır. İctimai-iqtisadi, sosial-mədəni yeniliklər mütərəqqi, demokratik ziyalılar təbəqəsinin formalaşması üçün münbit zəmin yaratmışdır. Yeni tipli mədəni-maarif ocaqlarının təşkil edilməsi nəticəsində dünyəvi elmlər tədris olunmağa başlamış, müəllim və şagirdlərin sayı getdikcə artmağa başlamışdır. Çar hakimiyyətinin Cənubi Qafqazdakı yerli hakimiyyət orqanları regionun bir sıra şəhərləri ilə yanaşı, Naxçıvan və Ordubad şəhərlərində XIX əsrin sonu XX əsrin əvvəllərində də yeni tipli qəza məktəbləri açmağa planlaşdırmışdır. Lakin bir sıra səbəblərdən müəllim kadralarının olmaması səbəbindən bu layihəni həyata keçirməmişlər (Mollayev, 1983: 4; Məmmədov, 2004: 20-21).

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev X1X əsrin sonu-XX əsrin əvvəllərində Naxçıvanda mədəniyyətə, təhsilə çox maraq olduğunu, mədəniyyətin inkişaf etdiyini göstərərək, C.Məmmədquluzadə, M. T. Sidqi və başqalarının fəaliyyətlərini yüksək qiymətləndirmişdir. (Talıbov, 2008: 7).Naxçıvanda o dövrdə təzahür edən mütərəqqi meyilləri nəzərdə tutan ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, “o vaxt Naxçıvan mühiti həqiqətən Şərqlə Qərbin yerləşdiyi bir yerdə, Şərqin ənənələrini özündə yaşadaraq, eyni zamanda dünyəvi həyat tərzi dünyəvi mədəniyyət sahəsində və Şərq mədəniyyətini Qərb mədəniyyəti ilə bağlamaqda, bunun sintezini yaratmaqda böyük rol oynamışdır”. (Əliyev, 2002: 110-111).

Naxçıvanda ilk qəza məktəbi 1837–ci il martın 15-də qəza hakimi Ehsan xan tərəfindən onun öz evində açılmışdır. Oraya 20-ə qədər uşaq cəlb edilmişdir. Ehsan xanın bu məktəbi öz himayəsinə götürmüş və hər il məktəb üçün 200 manat gümüş pul ödəmişdir (Əhmədov, 1965: 11-13). Həmin məktəb 1879-cu ildə üçsinifli şəhər məktəbinə çevrilmişdi. Məktəbin tədris planına ana dili, rus dili, rəsmxət, hesab, coğrafiya, tarix, təbiətşünaslıq kimi dünyəvi fənlərlə yanaşı, şəriət dərsləri də daxil edilmişdir. Mənbələrə görə iri kənd və əyalətlərdə ümümilikdə 6 ibtidai rus məktəbləri də olmuşdur ki, orada cəmi 7 müəllim fəaliyyət göstərmişdir. (Mollayev, 1983: 4; Əliyev, 1964: 11-12) Məktəbdə dünyəvi fənləri, əsasən buraya göndərişlə gəlmiş qeyri-azərbaycanlı müəllimlər tədris etmişdir. Görkəmli yazıçılarımızdan olan Cəlil Məmmədquluzadə, Eynəli bəy Sultanov, Naxçıvanda ilk teatrın yaradıcısı Mirzə Sadıq Qulubəyov, Qori Müəllimlər Seminariyasının məzunları Mirzə Ələkbər Süleymanov, Məmmədhüseyn Xəlilov, Moskva Universitetinin məzunu Fərəculla Şeyx və başqaları da bu ilk dünyəvi Naxçıvan məktəbini bitirərək, Azərbaycannın ictimai-ədəbi fikrinin inkişafında mühüm işlər görmüşlər.

XIX əsrin sonlarında bütün Azərbaycanda oldugu kimi, Naxçıvanda da yeni tipli məktəblərin Üsuli-cədid məktəbləri yaranmağa başladı. Görkəmli maarifçi M. T. Sidqi 1892-ci ildə Ordubadda «Əxtər», 1894-cü ildə Naxçıvan şəhərində isə Tərbiyə məktəbləri təşkil edərək bölgədə maarifin inkişafında yeni səhifə açmışdır. 1898-ci ilə kimi fəaliyyət göstərən Tərbiyə məktəbi sonralar rus-tatar məktəbinə çevrilmişdir. M. T. Sidqi məktəb proqramına ana dili ilə yanaşı, rus, ərəb, fars dillərini, tarix, hesab, coğrafiya fənlərini də daxil

etmişdir. Həmin dövrdə Naxçıvanda həmçinin «Məhəlli məktəblər», «Məktəbi-Xeyriyyə», «Rüşdiyyə» kimi tədris caqlarıda fəaliyyət götərmişdir.

Akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi müxtəlif dünyəvi fənlərin tədris edildiyi, müəllimlərin dərs dediyi "Məktəbi-tərbiyyə" (Tərbiyə məktəbi) Naxçıvanın ədəbi və mədəni mühitinin zənginləşməsində mühüm xidmətlər göstərmiş insanların mənəvi təkamülünün və dünyagörünüşünün formalaşmasında müstəsna əhəmiyyəti olmuşdu (Həbibbəyli, 1997: 56-71).

Naxçıvanda dünyəvi məktəblər şəbəkəsinin genişlənməsi maarifçi mühitin maarifçilik hərəkatı səviyyəsinə qalxmasına təkan vermişdir. E.Sultanov, Ə.Xəlilov, M.Qazıyev, C.Məmmədquluzadə, C.Sultanov, M.Süleymanov, M.Şahtaxtinski, S.Xəlilov, M.Kəngərli, Ə. Sultanov, Q.Şərifov, Ə. Qəmküsar, M. Şürbi və başqaları Naxçıvanda məktəb və maarifin inkişafında böyük xidmətlər göstərmişlər (Həbibbəyli, 1997: 44-45).

Çarizmin müstəmləkəçilik siyasətinə baxmayaraq XIX əsrin sonunda Naxçıvanda xalq məktəblərinin sayı artmağa başlamış bir sıra kəndlərdə yeni məktəblər açılmışdır. Bu dövrdə Naxçıvan maarifçilik hərəkatının ən səciyyəvi cəhətlərindən biri müsəlman qızların dünyəvi təhsilə cəlb edilməsi olmuşdur. Cəlil Məmmədquluzadə 1893-cü ilə Nehrəm kəndində müəllim işləyərkən ilk dəfə olaraq çox çətinliklə də olsa 8 nəfər qız uşağını təhsilə cəlb edə bilmiş onlar üçün xüsusi bir sinif açmışdır. (Şarif, 1968: 169-170).

Bunun ardınca görkəmli pedaqoq M.T. Sidqi ilə Naxçıvan qəzasında müsəlman qız məktəbi açmışdır. Lakin müxtəlif çətinliklər və məneələr görə məktəb 1902-ci ildə bağlanmışdır.

Naxçıvanın görkəmli maarifçilərindən biri olan M.Kəngərli Qafqazda ilk dəfə olaraq «Leyli» qız məktəbini açaraq, məktəbi özü maliyyələşdirmişdir. Onun açdığı məktəb qızlar üçün gimnaziya statusuna malik olubdur, oranı bitirənlər universitetlərə daxil olmaq imkanı qazanmışlar. Digər məktəblər kimi bu məktəbin də ömru uzun olmamışdır. 1901–ci il sentyabrın 15-də fəaliyyətə başladıqdan düz bir il sonra İrəvan şəhərinə köçürülmüş və 1905-ci il iyunun 1-də bağlanmışdır. (Həbibbəyli, 1997: 169-171)

XX əsrin əvvələrində Naxçıvanda qadınlar arasında maarifçilik ideyalarının yayılmasında kişilərlə yanaşı, ziyalı qadınlar da mühüm xidmətlər göstərmişlər. Görkəmli messamat H.Z. Tagıyevin qız məktəbini bitirmiş Nazlı xanım Tahirova 1912-ci ildə Naxçıvan şəhərində qız məktəbinin təşkil edilməsinə nail olmuşdur.

Rəşid bəy Əfəndiyev 1910-cu illərdə Naxçıvan şəhərində türk-qız məktəbini açaraq özü də orada dərs demişdir. 1917-ci ildən 1920-ci ilədək N.Nəcəfova Rəşid bəy Əfəndiyevin açdığı müsəlman-qız məktəbinin müdir işləmişdir. (Mollayev, 1983: 26)

Naxçıvanda maarifin və mədəniyyətin inkişafında mühüm rol oynamış bir sıra qadınlar o, cümlədən Y. Kəngərli, B. Naxçıvanskaya, D. Sultanova, S. Sultanova, X.Vəzirova F. Şeyxova və digərləri müsəlman-qız

**AKADEMİK BAKIŞ DERGİSİ**
**Sayı: 36 Mayıs – Haziran 2013**
**Uluslararası Hakemli Sosyal Bilimler E-Dergisi**
ISSN:1694-528X İktisat ve Girişimcilik Üniversitesi, Türk Dünyası Kırgız – Türk Sosyal Bilimler Enstitüsü, Celalabat – KIRGIZİSTAN
http://www.akademikbakis.org

məktəbin məzunları olmuşlar. Naxçıvanda qadın təhsilinin inkişafında xüsusi rolu olmuş ziyalı qadınlardan biri də Xədicə xanım Səfərəliyeva – Cəfərova olmuşdur. O, ilk təsilini Naxçıvan şəhərində almışdır. Bakıda H. Z. Tagıyevin qız məktəbini bitirdikdən sonra Naxçıvana qayıdaraq bacısı Tərlan xanımla öz ata evində iki otaq ayıraraq qızlar üçün məktəb açmışdır. Naxçıvanda maarifin inkişafında böyük rol oynamış B. Kəngərli, X. Mahmudova, S. Novruzova, A. Kələntərli, X. Səfərəliyevanın yetirmələri olmuşlar.

XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanın mədəni-maarif həyatında baş verən bəzi mütərəqqi proseslərə baxmayaraq çarizmin müstəmləkəçilik siyasəti nəticəsində bu bölgənin əhalisinin əksəriyyəti savadsız olmuşdur. Yazmağa və oxumağı bacaran insanların sayı əhalinin ümümi sayının cəmi 3-4 faizini təşkil edirdi. 1912-ci ilin məlumatına görə Naxçıvan qəzasında kişilərin 95, 2 faizi, qadınların 92,2 faizi, Şərur qəzasında kişilərin 95,2, qadınların 99, 2 faizi savadsız idi. Naxçıvanda təqribən hər 2 kəndə bir müəllim, hər 7 kəndə isə 1 məktəb düşürdü (Əliyev, 1964: 6). Sonrakı dövürlərdə, xüsusən 1917-1920-ci illərdə bölgədə cərəyan edən mürəkkəb siyasi proseslər xalq maarifinə öz mənfi təsirini göstərmişdir. Onsuz da məhdud olan məktəblərin sayı azalmış, təhsil sistemi iflic vəziyyətinə düşmüşdür. Əhalinin savadlılıq faizi daha da aşağı düşərək 2,0 faiz təşkil etmişdir (Əhmədov, 1965: 40-42). Naxçıvanda milli təhsil və mədəniyyət faktik olaraq ayrı-ayrı şəxslərin fədakar maarifçilik fəaliyyəti sayəsində inkişaf etmişdir. 1920-ci ilə qədərki dövrdə Naxçıvan bölgəsində məktəblərin ümümi sayı haqqında müxtəlif rəqəmlər mövcuddur. Mənbələrdə məktəblərin sayı 14 (Naxçıvan statistika güzgüsündə, 1999: 27), 57 (Sadıqov, 1995: 120) 45 (Naxçıvan Ensiklopediyası, 2005: 136) göstərilir. Oradakı şagirdlərin sayının 1500-2000 olduğu qeyd edilir (Məmmədov, 2004: 20-21).

R. Rəhimovun fikrinə görə Azərbaycan Rusiya tərəfindən işğalından əvvəl Naxçıvanda 15 aşağı tipli məktəb olmuşdur. Orada orta təhsili olmayan 34 müəllim işləmişdir (Rəhimov, 1959: 7). Naxçıvanda 1920-ci ilə qədər 4 kişi müəllimi C. Məmmədov, M. Suleymanov, M. Kazımbəyov, H. Qazıyev və 2 qadın müəllimin N. Nəcəfova-Tahirova və X. Səfərəliyeva olduğu, və 1 mülki işlər üzrə hüquqşünas olumuşdur. 1920-ci illərin sonlarında bütün Azərbaycanda, o cümlədən Naxçıvan MR–da məktəblərin strukturlarında əsaslı dəyişikliklər aparılmışdır. Yeddiilllik, doqquzillik məktəblər, fəhlə fakultələri, kəndli gənclər məktəbləri fəaliyyət göstərmişdir.

1921-1924-cu illərdə Naxçıvanda məktəblilər üçün dərs vəsaiti pulsuz olaraq dövlət fondu hesabına verilirdi (Məmmədov, 2004: 24). 1922-ci ildən başlayayaraq Naxçıvan diyarında təhsil sisteminin birinci mərhələsi sayılan məktəbəqədər tədris və tərbiyə müəssisələri də təşkil olunmağa başlamışdır. Hər iki tərbiyə ocqlarının və oradakı uşaqların sayı ildən-ilə artırdı (Djafarov, 1991: 12-13).

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarifin inkişafını ləngidən əsas məsələlərdən biri bölgələrdə müəllim kadrlarının çatışmaması idi. Bununla əlaqədar olaraq, 1921-ci ildən Xalq Maarifi Komissarlığının nəzdində 35 nəfərlik qısa müddətli müəllim kursları təşkil edilmişdir. Bakıda və digər

AKADEMİK BAKIŞ DERGİSİ
Sayı: 36 Mayıs – Haziran 2013
Uluslararası Hakemli Sosyal Bilimler E-Dergisi
ISSN:1694-528X İktisat ve Girişimcilik Üniversitesi, Türk Dünyası Kırgız – Türk Sosyal Bilimler Enstitüsü, Celalabat – KIRGIZİSTAN
http://www.akademikbakis.org

şəhərlərdəki kurslarda təhsil almaq üçün müdavimlər göndərilmişdir. İlk kurslardan biri Naxçıvanda 1922-ci ilin noyabrında açılmış və orada 60 nəfər qadın müəllimə hazırlanmışdır (Sadıqov, 1995: 70-72).

Naxçıvan Xalq Komissarları sovetinin 22 dekabr 1922-ci il tarixli dekreti ilə başqa sahələrdə işləyən müəllimlər xalq maarif komissarlığının sərəncamına göndərilmiş, bütün müəllimlər hərbi mülkəlləfyyətdən azad edilmişdilər. Müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırmaq üçün onların müəyyən ehtiyacı qismən də olsa ödənilmişdir (Qədim Naxçıvanda bayram, 1999: 42).

1922-1923-cü illərdə 110 nəfər fəhlə və kəndli uşaqları müxtəlif ali məktəblərə göndərilmiş və təqaüdlə təmin olunmuşdur. 1922-1923-cü tədris ilində diyardakı məktəblərin sayı 58-dən 46-ya düşsə də görülən tədbirlər nəticəsində onların sayı 1924-cü ildə 62 olmuşdur. Həmin məktəblərdən biri I dərəcəli, 61-i isə II dərəcəli məktəblərdir (Əliyev, 1964: 40-41; Əhmədov, 1965: 150-152; Məmmədov, 2004: 74-76).

Naxçıvanda müəlim kadrlarının hazırlanması istiqamətində1922-ci il avqustun 28-30-da keçirilmiş Azərbaycan Müəllimlər Qurultayının mühüm rolu olmuşdur. Qurultayda Naxçıvan maarifi qarşısında duran vəzifələr, müəllimlərin maddi və əxlaqi vəziyəti, gənc nəslin sosial tərbiyəsi, qızların təhsili, tədris proqramları və digər məsələlər geniş müzakirə edildi. Qurultayda Naxçıvanda məktəblərin vəziyyəti, müəllimlərin ixtisaslarının artırılması və s. məsələlər üzrə təkliflər hazırlanaraq hökümət orqanlarına göndərildi. Qurultayın qərarına əsasən müəllim kadrların olan ehtiyacı nəzərə alaraq, 1922-ci ilin noyabrında Naxçıvan şəhərində Müəllimlər Seminariyası təsis edildi. Semminariyaya rəhbərlik Tiflis Aleksandr İnstitutunun məzunu Xəlilağa Hacılarova tarşırılmışdır. Əbdüləzim Rüstəmov isə onun müavini təyin edilmişdir. Seminariyanın müəllimləri arasında Məhəmməd Rəsizadə, Həsən Səfərov, Əbdülləzim Rüstəmov, Həsən Qaziye, İbrahimxəlil Axundov, Əli Xəlilov və başqaları var idi. 1923-1924-cü tədris ilində seminariya Naxçıvan pedaqoji Texnikumuna çevirilərək Ordubad şəhərində fəaliyyət göstərməyə başlamışdır. Texnikumda pedaqoji şura, metodiki təşkilatlar, tələbə komitəsi, müxtəlif fənn dərnəkləri yaradılmışdı. 1925-1926-ci tədris ilində Ordubad şəhərindəki pedaqoji texnikumda 119 nəfər tələbə təhsil alırdı.

1924-cü ilin oktyabrında Naxçıvan Muxtar Respublikasında qadın seminariyası fəaliyyətə başlamışdır. Seminariyaya rəhbərlik N.Nəcəfovaya tapşırılmışdır. 1925-1926-ci tədris ilində Seminariya Qadın Pedaqoji Texnikumuna cevrilmişdir. Texnikumun ilk direktoru Fatma Əlizadə olumuşdur. Burada "Leyli və nahari" qruplar var idi. Həmin ildə texnikumda 80 nəfər tələbə qız təhsil alımışdı. Texnikumda Xədicə Yusifbəyli, Sövkət Mahmudbəyova, Sabirə Güləhmədova və digər qadın müəllimləri dərs deyirdilər.

Mənbələrin verdiyi məlumatdan belə məlum olur ki, 1921-ci ildə məktəblərdə oxuyan qızların sayı 80 nəfər idisə, 1925-ci ildə onların sayı 5,5 dəfə artmışdır (Niftaliev, 1964: 38). Növbəti 1926-1927–ci tədris ilində artıq 1137 nəfər azərbaycanlı qız məktəbdə təhsil alıbdır. Onlardan 1057 nəfəri I dərəcəli, 80 nəfəri II dərəcəli məktəblərdə oxuyurdular. Həmin tədris ilindən başlayaraq Naxçıvan Muxtar Respublikasında bəzi məktəblərdə qızlar oğlanlara birgə oxumağa başladılar. Qızların məktəblərə cəlb edilməsində 1927-ci ilin



iyulunda Naxçıvan VPK-nın müvafiiq qərarı da mühüm rol oynadı. Bütövlükdə 1927-1928-ci tədris ilində Muxtar respublikanın 80 məktəbində 7335 nəfər şagird təhsil alırdı. Onların 1019 nəfərini qızlar təşkil edir (Djafarov, 1987: 12).

Naxçıvanda təhsil alan azərbaycanlı uşaqların sayı da artaraq 1926-1927-ci illərdə 85% təşkil etmişdir. 1925-ci illərdə Naxçıvanda I dərəcəli məktəblərin ilk məzunları arasında azərbaycanlıların sayı 79,6% idi. 1926-ci ildə Naxçıvanda 2 məktəb və 78 məktəb fəaliyyət göstərirdi. 1926-1927-ci tədris ilində azərbaycanlı şagirdlərin ümumi şagirdlər arasında nisbət 85,0% təşkil edirdi. Məktəb yaşlı uşaqların 35%-i məktəbə cəlb edilmişdir (Mollayev, 1983: 18-21; Əliyev, 1964: 40-41; Əhmədov, 1965: 150-152).

Naxçıvanda Müəllimin sayı 1921-1922-ci illərdə Naxçıvanda 86, 1924-1925-ci illərdə isə 154 nəfərə çatşmışdır (Mollayev, 1983: 10). 1927-1928-ci tədris ilində Naxçıvanda 140 nəfər türk müəllim (onlardan 8 nəfəri qadın) maarifçilik fəaliyyəti ilə məşğul olmuşdur.

Naxçıvanda 1928-1929-cu tədris ilində kişi və qadın texnikumları birləşdirilməsi müəllim kadrların hazırlanmasının keyfiyyətcə yaxınlaşdırılmasına səbəb olubdur. Həmin ildə Naxçıvanda fəaliyyət göstərən texnikumlarda 411 nəfər tələbə oxuyurdu ki, onun da 71 nəfəri qız idi (Naxçıvan Ensiklopediyası, 2005: 123)

Sonda belə bir yekun nəticəyə gəlmək olar ki, XIX sonu XX əsrin əvvəllərində Azərbaycanda maariçiliyin inkişafında Naxçıvan ziyalıları mühüm işlər görmüşlər. Onların yeni tipli dünyəvi məktəblərin yaradılması, yaşlılar və qadınlar arasında savadsızlığın ləğvi, məktəb yaşlı uşaqların təhsilə cəlb edilməsi və s. sahəsindəki maarifçilik fəaliyyətləri nəticəsində Naxçıvanada mədəni mühüt canlanmış, yerli ziyalı kadrları formalaşmış, maarif və mədəniyyətin səviyyəsi artmışdır.

## ƏDƏBİYYAT

Djafarov F. (1991). Razvitie narodnoqo obrazovaniya v Naxçıvanskoy ASSR (1920-1941). Avtoref. Diss… kand.ist.nauk. Baku, 23 s.

Djafarov Q. (1987). Deyatelnost komsomola Azerbaydjana po vospitaniyu moledeji narevolyuçionnıx, boevıx I trudovıx tradiçiyax kommuniçeskoy partii i sovetskoqo naroda (po materialam Naxçıvanskoy ASSR). 1966-1975 qq. Diss…kand.ist.nauk. Baku, 32

Əhmədov H. (1965). XIX əsr Azərbaycan məktəbi. Bakı, Elm, 336 s.

Əliyev Ə. (1964). Naxçıvanda MSSR-də maarifin inkişafı. Bakı, Maarif, 150 s.

Əliyev H. (2002). Təhsil millətin gələcəyidir. Bakı, Təhsil, 580 s.

Həbibbəyli İ. (1997). Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı, Nurlan, 680 s

**AKADEMİK BAKIŞ DERGİSİ**
**Sayı: 36 Mayıs – Haziran 2013**
**Uluslararası Hakemli Sosyal Bilimler E-Dergisi**
ISSN:1694-528X İktisat ve Girişimcilik Üniversitesi, Türk Dünyası Kırgız – Türk Sosyal Bilimler Enstitüsü, Celalabat – KIRGIZİSTAN
http://www.akademikbakis.org

Qədim Naxçıvanda bayram. Naxçıvan MR-75. (1999). Bakı, Azərnəşr, 122 s.

Məmmədov V. (2004). Naxçıvan Müllimlər İnistitutu. Naxçıvan, Əcəmi, 80 s.

Mollayev İ. (1983). Naxçıvanda MSSR-də maarifin inkişafı. Bakı, Bilik cəmiyyəti, 103 s.

Naxçıvan Ensiklopediyası. (2005). 2 cilddə. Bakı, 450 s.

Naxçıvan statistika güzgüsündə. Tarixi, statistik məcmuə. (1999). Bakı, Səda, 190 s.

Niftaliev M. Kulturnoe stroitelstvo v Naxçıvanskoy ASSR. (1964). Baku, 250 s.

Rəhimov R. (1959). Böyük nailiyyətlər və yeni perspektivlər. Kommunist qəzeti, 8 fevral, № 43

Rəhimov R. (1959). Böyük nailiyyətlər və yeni perspektivlər. Kommunist qəzeti, 8 fevral, № 43

Sadıqov S.(1995). Naxçıvan MR tarixindən. Bakı, İrşad, 123 s.

Şarif A. (1968). Rojdenie Molla Nasraddina. Baku, Qyandjlik, 250 s.

Talıbov V. (2008). Naxçıvan MR təhsil işçilərinin konfransında çıxışı. Şərq qapısı, 9 sentyabr, 7 s